Üç əsrin qəzeti Kaspi


# “MƏN O QOCALARDAN DEYİLƏM Kİ...”




Xalq şairi Ramiz Rövşən: “Şair olmayanlar bəzən şairlərdən daha romantik olurlar. Sadəcə şairlər hisslərini ifadə edə bilirlər, onlar yox. Siz də mənim üçün şairlərdən az maraqlı deyilsiniz. Əgər sizin də daxilinizdə şeir, sənət, poeziya sevgisi varsa, bu duyğuları inkişaf etdirməyinizi tövsiyə edirəm”.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

FOTOLAR: Rüfət Mikayılov /Global Media Group

“Siz şeirlərdən, sətirlərdən, misralardan bir məbəd yaratmısınız. Bu məbədin sözləri qızıl kərpiclərdir. Yer üzündə olan insanların, göydəki ulduzların sayı var, ancaq sizin fikir dünyanızın sayı-hesabı yoxdur. Siz sevilmisiniz, ürəkləri fəth etmisiniz. Sizin şeirləriniz ruhu təmizləyir, mənəvi dünyamıza rəng qatır. Ona görə bu gün gələcəkdə inamlı addımlar atacaq şagirdlərin yanındasınız. Onlar sizin fikirlərinizlə böyüyürlər. Sabunçu rayonunun Savalan qəsəbəsindəki 28 saylı tam orta məktəbin şagird və müəllim kollektivi bu günü heç vaxt unutmayacaq!”

Bakı Şəhər Təhsil İdarəsi ilə “Kaspi” qəzetinin birgə layihəsi olan “Məktəbdə” qonaq olarkən Xalq şairi Ramiz Rövşən bu isti sözlərlə qarşılandı.




**ŞEİRLƏRİMDƏ DEMƏK İSTƏDİYİM...**

Ramiz Rövşən məktəbə qucaq dolu şeirləri, sevgi dolu ürəyi, uşaqlar üçün yazdığı yeni kitabları ilə qonaq gəldi. “Gözəl uşaqları görəndə adam özünü daha yaxşı hiss edir. 70 yaşdan sonra uşaq şeirləri yazmağa başladım. Bəlkə də bu qədər yaşamağımın səbəbi budur. Bütün uşaqlar dahidir. Evdə nəvələrimi görürəm. Onlar məndən istedadlıdırlar. Onların təxəyyülü çox genişdir. Uşaqlar bəzi məqamlarda bizdən də dərin düşünürlər”, - deyə şair söylədi.

Xalq şairi özünün məktəb illərini, şeir yazmağa başladığı vaxtları xatırladı: “Bülbülədə 79 nömrəli məktəbdə oxumuşam. İbtidai sinifdə Raziyə müəllimə Ana dili dərsində bizə on isim verib “hər ismə cümlə yazın”, - dedi. Mən cümlələri yazanda qafiyələndi. Raziyə müəllimə mənim cavabıma nəzər salıb “bu şeirdir”, - söylədi. O, şeiri çap olunmağa göndərdi. Bundan sonra mənim çoxlu şeirlərim çap olundu. Sonra 208 nömrəli məktəbdə oxudum. Mənə görə, şeir insan ruhunun ifadəsidir”.

**“VİRTUAL ALƏM İNSANI REAL HƏYATDAN AYIRIR”**

“Sizin məktəb illərinizlə indiki təhsilalanlar arasında ən böyük fərqi nədə görürsünüz? Ən çox dəyişən nədir?”, - deyə şagirdlərdən biri qonaqdan soruşdu. “İndi də oxuyan uşaqları görürəm. Bizim dövrdə də oxuyanlar vardı. Sadəcə, dövr başqa idi. O vaxt biz informasiyanı almağa cəhd edirdik, mənbələr axtarırdıq, amma sizin bu probleminiz yoxdur. Biz boş vaxtlarımızda uşaqlarla oynayırdıq. Filmə, tamaşaya baxmağa gedirdik. Amma indi uşaqların hamısı virtual aləmdədir. Siz bu informasiyaların içində müstəqilliyinizi saxlamağa çalışmalısınız. Çox istərdim ki, boş vaxtlarınızda muzeylərə, gəzintiyə gedəsiniz, kitab oxuyasınız, insanlarla ünsiyyətdə olasınız. Virtual aləm insanı real həyatdan ayırır. Çalışın fərqli, müstəqil düşünməyi öyrənin. Bu, sizə müstəqillik verəcək. Mən uşaqlarımızla fəxr edirəm. Mən o qocalardan deyiləm ki, “biz daha yaxşı idik” deyim”, - şair səmimiyyətlə cavab verdi.

## “AZƏRBAYCANIN GƏLƏCƏYİNİ PEŞƏKARLIQDA VƏ FƏDAKARLIQDA GÖRÜRƏM”

“Başqa sənət sahibləri, məsələn, həkim, müəllim, mühəndis də gözəl şeirlər yaza bilir. Belə çıxır ki, şairlik sənət yox, Allah vergisidir?”, - sualı şairi xeyli düşündürdü: “Başqa sənət sahibləri də şeir yaza bilərlər. Məsələn, mənim yaxın dostum Vaqif Bayatlı ixtisasca mühəndisdir. Dostum, akademik Rafiq Əliyev deyir ki, “mən də şeir yazırdım, amma sənin şeirlərini oxuyandan sonra atdım”. Mənə çox adamlar deyib ki, mənə görə şeir yazmaqdan əl çəkiblər. Onların hamısı məşhur adamlardır. Mahiyyət etibarilə şeir insana nizamlı düşünməyi öyrədir. Şeir insanın özünü ifadəetmə bacarığıdır”.

**“ONLARIN QƏHRƏMANLIĞINA HEYRAN OLDUM”**

“Uşaqların gələcəyini necə görürsünüz?”, - sualına Ramiz Rövşənin tövsiyəsi səsləndi: “Pandemiya vaxtı mənim çoxlu onlayn görüşlərim oldu. Ailələrdə də oluram, əsgərlərlə də çox görüşürəm. Azərbaycanın gələcəyini peşəkarlıqda və fədakarlıqda görürəm. 44 günlük müharibə zamanı əsgərlərimizin fədakarlığını gördüm. Onların qəhrəmanlığına heyran oldum. Bu qəhrəmanlıq və fədakarlıq olmasaydı, torpaqlarımızı işğaldan azad edə bilməzdik. Gənclərimiz fədakar olmalı və peşəkar yetişməlidirlər. Vətənin inkişafına belə nail olmaq olar. Bir şey haqqında hər şeyi bilmək lazımdır. Bir sahə haqqında hər şeyi bilmək, peşəkarlıqdır. İstəyirəm uşaqlarımız geniş məlumatlı olsunlar”.

“Məktəbdə” şagirdlər şairin köhnə və yeni şeirlərindən söylədilər. Sözlərinə yazılmış mahnıları ifa etdilər. Həyat, sevgi, Vətən, ayrılıqdan bəhs edən şeirləri şair də, auditoriya da böyük maraqla dinlədi.




### ƏGƏR SİZİN DƏ DAXİLİNİZDƏ POEZİYA SEVGİSİ VARSA...




“Maraqlıdır, şair dostlarınızla birlikdə olanda söhbətləriniz yalnız şeirdən, ədəbiyyatdan olur, yoxsa başqa mövzuları da müzakirə edirsiniz?”, - sualını maraqla ünvanlayan şagirdə “Mənim dostlarımın əksəriyyəti şairlər deyil”, - deyə R.Rövşən bildirdi: “Bir məşhur film bəstəkarından “Niyə bəstəkarlarla yox, iş adamları ilə oturursan?”, - deyə soruşublar. O da “Mən iş adamları ilə oturanda hamısı musiqidən danışır, bəstəkarlarla oturanda ancaq puldan danışırlar”, - cavabını verib. Mən də şair və yazıçılarla oturanda şeirdən danışmağımız yadıma gəlmir. Mən hər insandan nəsə alıram. Bəzən bir qatarda yol gəldiyim adam mənə 100 kitabdan artıq qida verib. Şair olmayanlar bəzən şairlərdən daha romantik olurlar. Sadəcə, şairlər hisslərini ifadə edə bilirlər, onlar yox”.

Şagirdlər şairə tarixi zəfərimizlə bağlı sual ünvanladılar: “Sizcə Vətən müharibəsindəki qələbəmizin ifadəsi şeir, nəsr nümunəsi, yoxsa hansısa film ssenarisi vasitəsilə mümkündür?” R.Rövşən qeyd etdi ki, Qarabağ müharibəsi ilə bağlı hələ çox əsərlər yazılacaq, filmlər çəkiləcək: “Mən bir dəfə demişdim ki, müharibədən çıxa bilsək, ədəbiyyatın öz yükü olacaq. Mən həm də kinossenaristəm. Yazdığım ssenarilər əsasında bir neçə bədii film çəkilib. Torpaqlarımızın işğaldan azad olması, xalqımızın, ordumuzun qəhrəmanlığı ilə bağlı ssenari yazmağı düşünürəm. Mənim qələbə ilə bağlı şeirlərim var. İndi bir kitab hazırlayıram. 3 müharibədən bəhs etdiyim, 90-cı illərdə çap olunan şeirlərimi yenidən çap edəcəm”.